Tarix və onun problemləri, №1-2 2009

**İLHAM XƏLILOV**
*AMEA-nın Tarix İnstitutunun elmi işçisi*

# ŞIMALI AZƏRBAYCANDA KOMENDANTLIQ REJIMI DÖVRÜNDƏ YENI HÜQUQ - MÜHAFIZƏ ORQANLARININ YARADILMASI VƏ ONLARIN FƏALIYYƏTI TARIXINDƏN

XX əsrin sonunda milli istiqlaliyyətini yenidən bərpa etmiş Azərbaycan xalqının qurduğu Azərbaycan Respublikasında tez bir zamanda geniş islahatlar həyata keçirilməyə, yeni quruculuq işləri görülməyə başlanılmışdır. Yeni demokratik, hüquqi, dünyəvi cəmiyyətə malik müstəqil dövlətin yaradılması baxımından çağdaş dünya demokratiyasına müvafiq hüquq - mühafizə sisteminin yaradılması çox önəmlidir. Ona görə də indi özünün təşəkkül dövrünü yaşayan hüquq - mühafizə orqanları bu proseslərdən kənarda qalmamışdır, onların çağdaş dünya standartlarına müvafiq şəkildə qurulması sahəsində geniş və sistemli işlərə başlanılmışdır. Qeyd etmək lazımdır ki, hüquq-mühafizə orqanaları zəngin tarixi keçmişə malikdir və bu məsələnin tədqiq olunması aktualdır. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda təşəkkül tapıb fəaliyyət göstərmiş hüquq-mühafizə sisteminin obyektiv tarixinin öyrənilməsi, həmin sahədə mövcud olmuş vəziyyətin hərtərəfli araşdırılması böyük elmi əhəmiyyətə malikdir.

XIX əsrin ilk illərindən etibarən Rusiyanın işğalçılıq planlarına və hərbi zorakı siyasətinə məruz qalan xalqımız süngü gücünə istiqlaliyyətdən, suveren hüquqlarından, azadlıqdan məhrum olundu, Şimali Azərbaycanın rus ordusu tərəfindən işğalı ilə Vətənimizin ərazi bütövlüyünə qəsd edildi. Hüquq normaları, ümumbəşəri dəyərlər və prinsiplər ilə bir araya sığmayan bu hərbi təcavüz, xalqımızın xanlıqlar timsalında siyasi müstəqillikdən, öz milli ərazi və təbii sərvətləri üzərində sahiblik və sərəncam hüququndan məhrum edilməsi ilə nəticələndi.

Romanovlar Rusiyasının istilaçı planlarında Azərbaycan mühüm hərbi - strateji dayaq məntəqəsi, zəngin təbii sərvətlərə malik xammal bazası kimi qiymətləndirilirdi. Belə bir əlverişli ölkəni ələ keçirmək və burada möhkəmlənmək üçün çarizm tərəfindən hazırlanmış və tədricən həyata keçirilməsi planlarında müstəmləkəçi hüquq - mühafizə orqanlarının da xüsusi yeri var idi. Çarizm özünün müstəmləkə siyasətində inzibati dəyişiklikləri, köçürmələri, əhalinin ruslaşdırılmasını, xristianlaşdırmanı və digər tədbirlərini həm də hüquq - mühafizə orqanlarının əli ilə, onların vasitəsilə həyata keçirirdi. Həmçinin xalqın qəbul etmək istəmədiyi müstəmləkə siyasətinə qarşı baş qaldırmış hər hansı narazılığı və çıxışı boğmaq üçün hüquq - mühafizə orqanları çarizmin əlində əvəzedilməz kəsərli bir silah idi. Bu baxımdan da tədqiqat obyekti kimi götürülmüş məsələnin araşdırılması vacibdir. XIX - XX əsrin əvvəllərində Şimali Azərbaycandakı hüquq – mühafizə orqanları, onların xarakteri, işi tarixi səpkidən öyrənilmədiyindən bu problemin öyrənilməsi aktual elmi vəzifədir.

Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının başlanğıcı 1801-ci ildən hesablanır. I Aleksandrın (1801-1825) 1801-ci il 12 sentyabr tarixli manifestinə əsasən Kartli-Kaxetiya çarlığı ilə birgə Qazax, Şəmşəddil və Borçalı sultanlıqları kimi Azərbaycan torpaqları da Rusiya imperiyasına ilhaq edildi. Sonradan bütün xanlıqlarımız bir - birinin ardınca işğal olundu. 1826-1828 - ci illərin Rusiya - İran müharibəsi Türkmənçay müqaviləsi ilə başa çatdı. Bu müqavilə ilə Qacarlar Naxçıvan və İrəvan xanlıqlarının Rusiya tərəfindən işğal edilməsi ilə barışmalı oldu. Bununla da Şimali Azərbaycanın çar rusiyası tərəfindən işğalı başa çatdı.

Cənubi Qafqazın Rusiya tərəfindən işğalı prosesində ayrı-ayrı vilayətlərdə yeni,

müstəmləkəçi idarə sistemi formalaşmışdı. Çar Rusiyasının hakim dairələri buranın zəngin təbii ehtiyatlarından öz maraqları baxımından istifadə etmək niyyətində idi. Yerli rus hakimiyyət dairələri işğalın ilk günündən başlayaraq burada ümumqafqaz rus inzibati orqanlarının yaradılmasını vacib hesab edirdi.

Gəncə xanlığı Rusiyaya qatıldıqdan sonra, onun paytaxtının adı dəyişdirilərək Yelizavetpol qoyuldu, xanlığın ərazisi qəzaya çevrildi. Gürcüstan quberniyasının tərkibinə verildi. Qəzanın idarə olunması, hərbi, mülki, məhkəmə, polis və maliyyə hakimiyyətinə malik komendanta tapşırıldı (4, sənəd 1181). Bu vəzifəyə rus zabiti təyin olunurdu. Yelizavetpol qəzasında komendant vəzifəsini əvvəllər Tiflis müşketyor alayının mayoru Koçnev icra edirdi. Zemstvo polisinin bilavasitə iştirakı ilə əhalidən yığılan vergilər komendant tərəfindən Ali Gürcü hökuməti ekspedisiyasının xəzinəsinə göndərilirdi. Yelizavetpol komendantının Gürcüstan hakimiyyəti ilə başqa sahələrdə münasibətləri saxlanılmırdı. 1806-cı ildə Yelizavetpol qəzasında yeni qəza məhkəməsi və zemstvo polisi idarələri yaradılır.

Bakı xanlığı Rusiya tərəfindən işğal edildikdən (1806-cı ilin payızı) sonra başında komendant olmaqla əyalət təşkil edildi. Bakı əyalətinə təyin olunmuş komendanta əyalətdəki bütün vəzifəli şəxslərin fəaliyyətini nizamlamaq və əyalətdən yığılan vergilərdə müəyyən olunmuş məbləğdə dəyişikliklər etməsi tapşırılmışdı.

Quba xanlığı ləğv edildikdən (1806-cı ilin payızı) sonra ilk vaxtlar onun idarəçiliyi əyalət naibi kimi Hacı bəyə həvalə edilmişdi. Ona «daxili idarəçilik və ştab-zabitlərin iştirakı ilə vergilərin toplanması» (8, səh. 63) tapşırılmışdı. Bütün vergilər Gürcüstanın baş idarəsinin xəzinəsinə təhvil verilməli idi.

1809-cu ildə Quba əyalətini idarə etmək məqsədilə başda Mirzə Məhəmməd xan olmaqla 4 nəfər nüfuzlu bəydən ibarət Quba idarəsi təsis edilmişdir. Quba idarəsinin fəaliyyəti Qubada yerləşən rus hərbi dəstəsinin rəisi mayor Ryabinin tam nəzarəti altında idi. Lakin 1810-cu ildə rus müstəmləkə hakimiyyətinə qarşı Qubada baş verən üsyan Quba idarəsinin və onun baş naibinin nüfuzunu zəiflətdiyinə görə, üsyan yatırıldıqdan sonra idarənin sədri vəzifəsinə Quba qalasının komendantı olan çar qərargah zabiti təyin olundu (9, səh. 9).

Hələ 1807-ci ilin martında Pənahəli bəy Dərbənd şəhərinin naibi təyin edilmişdi. İşğaldan dərhal sonra istər Qubada, istərsə də Dərbənddə belə mühüm idarəçiliyə başçılığın yerli, lakin çarizmə sadiq olan, adamlara tapşırılması müstəmləkəçilərin yerlərdə onlara qarşı müqaviməti zəiflətmək istəyindən irəli gəlirdi. Digər tərəfdən bu məmurlar, bu idarələr rus hərbi – müstəmləkə orqanlarının ciddi nəzarəti altında idi. O, Dərbənd komendantı mayor Lukyanovun bilavasitə iradəsindən asılı idi. Pənahəli bəy Dərbənd şəhərinin naibi vəzifəsinə şəhər ruhaniləri və nüfuzlu sakinlərinin xahişinə əsasən təsdiq edilmişdi. Dərbənddə də üsyan baş verdiyinə görə yeni komendant polkovnik Adriano təyin edilmişdi.

Rusiya imperiyasının daxili quberniyalarında qəbul olunmuş şəkildə yeni idarə sistemi yaradılan Gürcüstandan fərqli olaraq, Şimalı Azərbaycanda xanlıq və sultanlıq idarə sisteminin yeni, əsasən hərbi idarəçiliklə dəyişdirilməsi uzun müddət davam etmişdi. Xanların idarəçilikdən uzaqlaşdırılması və rus inzibati idarəçiliyinin həyata keçirilməsi, habelə buna qədərki mövcud hüquqi aktların möhkəmləndirilməsi və bir sıra tədbirlərin yerinə yetirilməsi rus hökumətinin təcrübi fəaliyyəti ilə əlaqədar idi.

Yelizavetpol qəzasında, Borçalı, Şəmşəddil, Qazax, Pəmbək, Şorəyel distansiyalarında şəhər və zemstvo polisi, Bakı, Quba, Dərbənd əyalətlərində komendantlar, Şirvan, Şəki və Qarabağda isə hərbi rəislər yerlərdə hüquq – mühafizə işinə rəhbərlik edirdilər. Onlar həmçinin yerlərdə dövlət vergilərinin yığılmasında böyük səlahiyyətlərə malik idilər.

Yelizavetpol qəzasında şəhər və zemstvo polisinə məbləği 100 rubla qədər olan oğurluq işlərini yerindəcə həll etmək hüququ verilmişdi. Şəhər və zemstvo polisinin nəzarəti altında, oğurlanan əmlak zərərçəkənə qaytarılır, əmlak oğrusu isə həmin əmlakın 2 misli məbləğində cərimə edilirdi; ikinci dəfə həmin şəxs oğurluq üstündə tutulurdusa birincisindən 2 dəfə çox cərimə edilirdi; üçüncü dəfə belə cinayət edilərdisə cinayətkar Sibirə, katorqa işlərinə göndərilirdi (5, sənəd 44).

Bakı, Quba, Dərbənd əyalətlərində, Şirvan, Şəki və Qarabağ xanlıqlarında polis vəzifələri bir müddət həm də maafların ixtiyarında qalmışdı.

Yelizavetpol qəzasında zemstvo polisi idarəçiliyinə alışmayan əhali narazılıq etməyə başlamışdı və polislərə itaətsizlik göstərirdi. Lakin buna baxmayaraq hökumət zemstvo polisinin fəaliyyətini qənaətbəxş hesab edirdi, burada əvvəllər olduğu kimi qəza polisi rəisi yanında əlavə kargüzar da saxlanılırdı. Qəza polis rəisi tabeliyində iki nəfər iclasçı olurdu ki, onlar rəis tərəfindən gürcü əyanlarından təyin olunurdular. Onlar yasovul adı ilə Gürcüstanın baş idarəsi tərəfindən həmin vəzifəyə təsdiq edilirdilər.

Polis hissəsində xırda qanun pozuntularına görə şəhər sakinləri 25 gümüş rubla qədər cərimə oluna bilərdilər ki, bununla onları qorxu içərisində saxlamaq mümkün olsun. Cərimə pulları xüsusi kitablara qeyd edilir və onun haqqında Dövlət ekspedisiyasına ətraflı məlumat verilirdi.

Zemstvo polisi tərəfindən edilən özbaşnalıqlar nəticəsində Yelizavetpol qəzasından əhalinin çıxıb getmə halları elə bir miqyas almışdı ki, onun qarşısını almaq üçün Qafqazın Baş hakimi general Rtişşev şəxsən bu işə qarışmalı olmuşdu. O, Yelizavetpolda baş verən hadisələrlə bağlı həm şəhərdə, həm də qəzada sakitliyi bərpa etmək məqsədi ilə rusların etibar etdiyi Kalatuzovu şəhərə yeni polismeyster vəzifəsinə təyin etmişdir. Bu məmur qəzanın sərhədlərində təhlükəsizlik tədbirləri görmüş, hər yerdə öz keşikçilərini qoymuşdur.

Artıq 1823-ci il oktyabrın 24–də imzalanmış fərmana əsasən Yelizavetpolda polismeyster bütün sahələrdə polisə rəhbərlik etməli idi. Həmçinin onların maaşı artırılırdı. Əgər şəhərdə hər hansı intizamsızlıq baş verirdisə, bunun üçün polismeyster cavabdeh idi.

Onbaşılar polismeyster tərəfindən təyin olunmalı idi. O biri məhəllədən daha böyük olan cənub məhəlləsinə 2 nəfər atlı, 3 nəfər piyada onbaşı, şimal məhəlləsinə isə 1 atlı, 2 piyada onbaşı nəzarət etməli idi. Şəhərin ikinci hissəsinin hər məhəlləsində 1 atlı və 2 piyada onbaşı olmaqla həmin əraziyə baxmalı idi.

Bundan əlavə polismeyster və şəxsi pristavlar yanında şəhərdə təcili çapar və konvoy, həmçinin gecə nəzarəti üçün 1 nəfər uryadnik və 8 nəfər kazakdan ibarət atlı komanda yaradılmalı idi.

Yelizavetpol polisinin ştatındakı məmurların illik məvacibi 3600 rubl olmalı idi ki, bu da yerli əhalidən yığılan vergilər hesabına ödənilirdi. Bu layihə 1824-cü ilin oktyabrın 10 -da çar I Aleksandr tərəfindən təsdiq edilmişdi (6, sənəd 1359).

Göründüyü kimi, hələ işğalın gedişində müstəmləkəçilər öz hakimiyyətlərini qorumaq üçün hüquq – mühafizə orqanlarının şəbəkəsini daim təkmilləşdirir və genişləndirir, bunun bütün xərclərini isə yerli əhali üzərinə qoyurdular.

Şəkili İsmayıl xanın ölümündən (1819-cu il 24 iyul), Şirvanlı Mustafa xanın (1820-ci il 19 avqust) və qarabağlı Mehdiqulu xanın (1822-ci il 21 noyabr) xarici qaçmalarından sonra Şəki, Şirvan və Qarabağ xanlıqları rəsmi olaraq ləğv edildi və onların yerində əyalətlər yaradıldı.

Şimali Azərbaycan əyalətləri iki dairədə birləşdirilmişdi. Şəki, Şirvan, Qarabağ və Lənkəran əyalətləri mərkəzi Şuşa şəhəri olan «Şuşa müsəlman əyalətləri rəisliyi» adlandırılmış quruma tabe edilmişdi. Bakı, Quba və Dərbənd əyalətləri isə mərkəzi Dərbənd-

də yerləşən hərbi dairə rəisliyinə daxil edilmişdi.

Hərbi dairə rəisləri rus generallarından təyin edilir və onlar Gürcüstanın baş idarəsinin tabeliyində olurdular. Onlar həm də divizya komandirləri hüququna malik idilər. Əyalətin inzibati idarəçiliyi həm hərbi, həm mülki idarəçilik baxımından hərbi dairə rəisinə tabe idi. Hərbi dairə rəislərinin səlahiyyətlərini müəyyən edən xüsusi sərəncam verilməmişdi.

Şimali Azərbaycandakı əyalətlərdə idarəçiliyi bilavasitə komendantlar icra etməli idilər. Onlar Gürcüstandakı Baş komandan tərəfindən rus ordusunun zabitləri, çox vaxt polkovnik və generallardan təyin olunurdular. Komendantlar ancaq baş komandana tabe olub dairə rəislərinə heç bir hesabat vermirdilər.

Komendant idarəçiliyi özlüyündə təsərrüfat, məhkəmə, polis və məxfi hissələri birləşdirirdi. Komendantlar pul vergilərinin toplanmasını təmin edir, qazıları təsdiq edir, mahal naibləri və digər məmurları təyin edir, yolların və körpülərin vəziyyətinə görə məsuliyyət daşıyırdılar. Onlar həmçinin yerli əhalinin davranışını və Rusiya hakimiyyətinə olan münasibətlərini öyrənmək üçün yerli adamları cəlb etməklə təşkil olunan məxfi hissəyə də başçılıq edirdilər.

Komendant idarəçiliyi komendantla yanaşı, komendant köməkçisi, polismeyster, əyalətin təsərrüfatına nəzarət edən əyalət xəzinədarı və digər məmur ştatlarına malik idi. Bakı əyalətində 1824-cü ildə təsdiq olunmuş komendant idarəçiliyinin müvəqqəti ştatları hərbi qərargah zabiti, həmçinin digər zabitlərdən olan köməkçisi, plasadyutant, polismeyster (qalabəyi) və onun yerli əhalidən olan köməkçisi, mülki məmurlardan katib, tərcüməçi, mirzə, atlı və piyada yasovullardan ibarət idi. Təbii ki, belə ştatlar digər əyalətlərin komendantlıqlarında da təsis edilmişdi (2, II h., səh. 21).

1826-cı ildə Lənkəran xanı Mirhəsən xan İrana getdikdən sonra xanlığın idarəçiliyini rus komendantı təkbaşına həyata keçirməyə başlamışdır. İranla müharibə başa çatdıqdan sonra Gürcüstanın Baş hakimi general Paskeviç 1828-ci il aprelin 23-də Lənkəran xanlığında baş qərargah zabiti, iki ober - zabit və «yerli əhalidən rusların etibar etdiyi» iki nəfərin iştirakı ilə Müvəqqəti idarəçiliyin təsis edilməsi haqqında sərəncam vermişdir. İki ildən sonra Lənkəran əyalətinin Müvəqqəti idarəçiliyi üçün Nazirlər komitəsinin 1830-ci ilə 15 aprel qərarı ilə ştatlar müəyyən edildi. 1841-ci ilə kimi müvəqqəti Lənkəran idarəçiliyində heç bir dəyişiklik edilməmişdir.

İşğaldan dərhal sonra Naxçıvan xanlığının və Ordubad dairəsinin idarəçiliyi Ehsan xana və onun qardaşı Şeyxəli bəyə tapşırılmışdır. Onların köməkçiləri vəzifələrinə rus məmurlarından olan pristavlar təyin olunmuşdular. Bütün idarəetmə məsələləri onlar tərəfindən qarşılıqlı razılaşma əsasında həll edilməli idi. Mübahisəli məsələlər isə 1827-ci ildə təsis edilmiş İrəvan əyaləti idarəçiliyinin ixtiyarına verilməli idi.

Əyalətlərdə xanlıqlar dövründə mövcud olmuş inzibati - ərazi bölgüsü, mahallar olduğu kimi saxlanmışdı. Mahalların idarəçiliyi naiblərə həvalə edilmişdi. Onlar komendant tərəfindən çar hökumətinə sədaqətli bəylər içərisindən seçilir və Gürcüstanın baş idarəsi tərəfindən vəzifələrinə təsdiq edilirdilər. Mahal naiblərinin hüquq və vəzifələri hər hansı dövlət aktı ilə müəyyən olunmamışdı. Faktiki olaraq onların səlahiyyətləri təkcə ayrı - ayrı əyalətlərdə deyil, habelə ayrıca götürülmüş bir əyalətdə belə müxtəlif idi. Bir qayda olaraq onlar bütöv əyalət üçün müəyyən edilmiş miqdarda vergi və mükəlləfiyyətləri kəndlər arasında bölüşdürür, kəndlilər tərəfindən mükəlləfiyyətlərin yerinə yetirilməsinə nəzarət edir, məhkəmə və polis funksiyalarını da yerinə yetirirdilər (3, IV h., səh. 96).

Naiblərin əksəriyyəti məvacib almırdılar. Məsələn, Qarabağ əyalətində 11 naibdən yalnız ikisi məvacib alırdı. Əyalət mərkəzlərində şəhər polisi polismeyster (qalabəyi) və yerli əhalidən təyin olunmuş iki şəxsi pristavdan ibarət olurdu. Onlar şəhər vergilərinin

toplanmasında yaxından iştirak edirdilər. Bir müddət Şuşada polismeysterin köməkçisi Kazım bəy olmuşdu.

Artıq yuxarıda qeyd edildiyi kimi, xanlıqların əhalisinin mühüm təbəqələrindən biri də maaflar təbəqəsi idi. Bu vəziyyət rus müstəmləkəçi idarəçiliyinin ilk onilliklərində də qalırdı. Hər bir əyalətdə vergilərdən azad edilmiş maaflar təbəqəsi var idi. 1829-cu ildə, son dərəcə natamam məlumatlara əsasən, Qarabağ əyalətində 500 nəfərə yaxın, Şirvan əyalətində 350 nəfərə yaxın maaf yaşayırdı. Maafların xeyli hissəsi milisin tərkibində olsa da, onların bir hissəsi kasıb olduğu üçün milisin tərkibinə qatıla bilməmişdir. Maaflar, yaxud vergi ödəməyənlərin imkanlıları alaylara yazılır, kasıblar isə vergi verənlər təbəqəsinə aid edilirdi. Hər bir maaf ailəsi komendantın xidmətinə atlı və yaxud piyada verməli idi. Maaflar toplamaq məqsədilə hər əyalət 100 ailədən ibarət yüzlüklərə bölünmüşdü. Yüzlüklərə bölünmə yerli rəis tərəfindən həyata keçirilirdi.

Çar xəzinəsinin fiskal mənafelərini hər şeydən üstün tutan çar hökuməti hələ XIX əsrin 30-cu illərində maaflıq institutunun ümumiyyətlə ləğv edilməsi məsələsini qaldırmışdı. Maaflara münasibətdə hökumət dairələri içərisində ilk vaxtlar mövcud olan cuzi fikir ayrılıqları tezliklə aradan çıxmış və XIX əsrin ortalarında bu imtiyazlı təbəqə tədricən ləğv edilmiş, maafların, demək olar ki, hamısı vergi verənlər sırasına qatılmışdı.

Qafqazın inzibati idarəçiliyində, çar hüquq – mühafizə orqanları sistemində mühüm yerlərdən birini mütləqiyyətin sədaqətli dayağı, monarxiyanın irticaçı mexanizmi olan jandarm idarələri tuturdu. Çarın 1831-ci il 7 iyul tarixli sərəncamı ilə Qafqazda məxfi hərbi polis yaradılmışdı. Bunu yaratmaqla çar hakimiyyəti Qafqaz əhalisi, hər şeydən əvvəl «ümumi əminamanlığı» pozanlar, həmçinin siyasi etibarlılığı olmayan hərbi qulluqçular və məmurlar üzərində güclü polis nəzarətini təmin etmək niyyətində idi.

Məxfi hərbi polis idarəsinə Cənubi Qafqaz diyarının hərbi polismeysteri rəhbərlik edirdi (1, v. 1). Hərbi polismeyster Cənubi Qafqaz diyarının Baş idarəsinin razılığı ilə jandarm korpusuna keçirilən qərargah zabitlərindən seçilirdi. Cənubi Qafqaz diyarında hərbi polismeysterin Gürcüstanda 1 nəfər, İmeretiya, Meqreliya, Quriya və Ahalsıxda 1 nəfər, İrəvanda 1 nəfər, digər Azərbaycan əyalətlərində 1 nəfər və Dağıstanda 1 nəfər olmaqla qərargah və ober zabit rütbələri olan 5 köməkçisi olmalı idi. Bu köməkçilərdən asılı olmayaraq hərbi polismeyster əyalətlərdə, alaylarda, ali məhkəmələrdə, limanlarda, gömrükdə, karantində, xarici konsulluqlarda, Asiya ölkələrində və digər yerlərdə vəziyyətlə əlaqədar kəşfiyyat işləri aparan və məlumatlar toplayan müxtəlif təbəqələrdən olan adamlardan ibarət məxfi müvəkkilləri olurdu. Hərbi polismeysterin köməkçiləri belə onları üzdən tanımırdılar.

Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra burada mütəmadi olaraq ilk növbədə ağır cinayət işlərinə baxmaq və həll etmək üçün xüsusi məhkəmə idarələri yaradılmağa başlamışdı.

Müəyyən müddətdə mülki və azəhəmiyyətli cinayət işlərinin istintaqı ruhanilərin əlində qalmışdı. Dini məhkəmə Qafqaz, xüsusən də müsəlman əhalisi arasında böyük nüfuza malik idi və ədalət məhkəməsinin aparılması onun gəlirinin xeyli hissəsini təşkil edirdi. Məhkəmə səlahiyyətləri mülki hakimiyyətə verilsə də, bir sıra işlərin dini məhkəmələrin icraatında saxlanılması çarizmin ruhanilərə güzəştli, kompromis kimi qiymətləndirilə bilər.

1805-ci ilin mayında Yelizavetpol dairəsinin müsəlman ruhanilərinin dövlət hesabına saxlanması qaydası müəyyən edilmişdi. Eyni zamanda onların məhkəmə funksiyaları boşanmalar və mirasın bölünməsi işləri ilə məhdudlaşdırılırdı. Oğurluq, qarət, xətər yetirmə və adam öldürmə ilə əlaqədar olmayan işlərdə ruhanilər münsiflər məhkəməsi kimi araşdırma apara bilərdilər.

Ruhani (şəriət) məhkəmələrində qərarlar yerli adət və şəriət əsasında verilirdi. Mi-

ras qalmış əmlakın bölünməsi kimi işlərin həll edilməsində iddiaçının məxsus olduğu məzhəb və onun qaydaları nəzərə alınırdı; belə ki, şiələrdə miras qalmış əmlak yaxın qohumları, yaxın qohumlarından heç biri sağ qalmayıbsa, onda uzaq qohumları arasında bölünürdü. Sünnilərdə isə mirasa sahib olma hüququ yaxın qohumları ilə bərabər uzaq qohumlarına da aid edilirdi. Boşanma ilə bağlı işlərdə kəbini ləğv etmək istəyən hər iki məzhəbdən olan kişilər arvadın cehizini qaytarmalı idilər. Əgər kəbinin ləğv edilməsinin təşəbbüskarı qadın olardısa onda onun kəbini cehizsiz ləğv edilirdi.

1806-cı ildə Yelizavetpol qəza məhkəməsi fəaliyyətə başladı. Orada məhkəmə prosesinin yerli əhalinin başa düşmədiyi dildə, bu əhalinin tanış olmadığı Rusiya qanunvericiliyi əsasında aparılması, həmçinin mürəkkəb bürokratik prosedura onların nüfuzunu azaldırdı. Ona görə də məhkəmələrdə dilmanc (tərcüməçi) ştatlarının açılması və digər məsələlərin həlli təxirəsalınmaz problem kimi qalırdı. Ədliyyə naziri Dmitriyevin general Tormasova yazdığı 1810-cu il 11 oktyabr tarixli məktubunda Yelizavetpol qəzasında yaradılmış məhkəmə əsasında iki azərbaycanlı və erməni məhkəmələrinin açılmasının zəruri olduğunu göstərirdi. Lakin rus müstəmləkəçi hüquq-mühafizə sisteminə haqlı olaraq etibar etməyən əhali tərəfindən məhkəməyə çox az müraciət edildiyinə görə 1812-ci ildə bu məhkəmə bağlanılır, onun işləri isə Tiflis qəza məhkəməsinə tapşırılır.

Yelizavetpol qəzasının dairə ilə əvəz edilməsi ilə 1814-ci ildə dairə rəisinin başçılığı ilə şəhər komendantı, xəzinədar və iki iclasçıdan ibarət müvəqqəti dairə məhkəməsi yaradılır. Bu dairə məhkəməsinə təkcə məhkəmə funksiyası deyil, habelə zemstvo polisi vəzifələri həvalə olunmuşdu (7, səh. 89).

Əyalət komendantı məhkəmənin sədri idi. Onun üzvləri isə yerli əhalinin içərisindən zıxan, çarizmə sədaqətli olan iki bəy və iki şəhərlidən (əsasən iri tacir və sənətkarlardan; biri azərbaycanlı, digəri erməni) ibarət olurdu. Məhkəmənin tərkibində olan bəylər və şəhərlilər hər il müvafiq təbəqədən seçilirdilər. Onların namizədliyi mütləq Qafqaz Baş idarəsi tərəfindən təsdiq edilməli idi.

Şəhər məhkəmələri məhkəmə işlərini aparmaqla yanaşı, həm də inzibati-idarəçilik orqanı funksiyalarını yerinə yetirirdi. Onlar mülki və azəhəmiyyətli cinayət işlərini həll etməklə bərabər şəhərin məxaric cədvəlini tərtib edir, Baş idarənin razılığı ilə şəhər əmlakını idarə edir, şəhər və torpaq vergilərinin müəyyən edilməsinə və yığılmasına nəzarət edirdi.

Məhkəmə işlərinin istintaqı şifahi olurdu və bir qayda olaraq bir gün müddətində başa çatdırılırdı. Mübahisəli məsələlərin izahı üçün arayışın gətirilməsi vacib olduğu zaman, şəhərlilər üçün məhkəmə istintaqı müddəti üç günə, kənd əhalisinə isə yeddi günə qədər uzadılırdı.

Azərbaycanın bir sıra əyalətlərində şəhər məhkəmələri deyil, əyalət məhkəmələri təşkil edilmişdi. Şəki əyalətində 1819-cu ilin 25 avqustunda, Şirvanda 1820-ci il 12 sentyabrında, Qarabağda 1822-ci ilin dekabrında yaradılmış əyalət məhkəmələrinin tərkibi və əsas funksiyaları şəhər məhkəmələri ilə təxminən eyni idi.

Nuxa şəhərində məhkəmənin təsis edilməsi bir sıra nüfuzlu bəylərin və xalqın narazılığı ilə qarşılanmışdı. Onlar əvvəllər olduğu kimi şəriət məhkəməsinin saxlanmasının tərəfdarı kimi çıxış edirdilər. Bu işdə yerli əhali də bəyləri müdafiə edirdi.

Əyalətlərdə məhkəmənin təsis edilməsinə baxmayaraq, məhkəməni keçirmək üçün xüsusi yerlər təşkil olunmamışdı. Qraf Quryev 1822-ci il fevralın 24-də general Yermolova yazdığı məktubunda göstərirdi ki, Şəki və Şirvan əyalətlərində məhkəmə yerləri verilmədiyinə görə bütün işlər şifahi aparılırdı.

Şəhər məhkəmələrində olduğu kimi əyalət məhkəmələrinin də səlahiyyətləri mülki və az əhəmiyyətli cinayət işlərinə baxılması ilə məhdudlaşdırılmışdı. Bu da Rusiyanın daxili quberniyalarının qəza məhkəmələrinin iş üslubu ilə demək olar ki, eyni idi. Bu-

nunla belə əyalət məhkəmələri vergilərin yığılmasına nəzarət etmək, kontraktlar bağlamaq, ticarət aparmaqla inzibati təşkilat kimi də çıxış edirdi.

İlk əvvəllər İrəvan əyalətində məhkəmə işlərinin qaydaya salınması, mülki işlər üzrə məhkəmənin qurulması ruhani və kəndxudaların səlahiyyətinə həvalə olunmuşdu. Onlar həmçinin şəhər idarəçiliyi ilə də məşğul olmalı idilər, lakin onlara xüsusi appelyasiya məhkəməsi işlərinin aparılmasına icazə verilmirdi. İrəvan vilayət idarəçiliyi təsis edildikdən sonra İrəvan və Naxçıvan şəhərlərində polis və məhkəmə (divan) idarələrindən ibarət şəhər idarəçiliyi yaradıldı. İrəvan şəhər məhkəməsində sədr polismeyster və onun köməkçisi isə şəhər xəzinədarı idi. Bu da həmin işi bilən adamların çatışmazlığı ilə izah olunurdu.

Lənkəran əyalətində əyalət məhkəməsi vəzifələrini Müvəqqəti Lənkəran idarəsi yerinə yetirirdi. Yerlərdə baş verən mübahisəli məsələlərə yerli adət və qaydalar ilə baxılır və həll edilirdi. Cinayət işlərinin qərarları isə Tiflis hərbi qubernatorunun təsdiqinə verilirdi.

Şimali Azərbaycanda şəhər və əyalət məhkəmələrinin təşkili və fəaliyyəti sisteminə nəzər yetirdikdə məhkəmənin formal olaraq kollegial başlanğıca əsaslanmasına baxmayaraq, məhkəmə və inzibati təşkilatlar arasında ciddi sərhəddin olmadığı qənaətinə gəlmək olur. Bundan başqa məhkəmənin qərarları bir qayda olaraq ona sədrlik edən rus məmurunun, bir qayda olaraq komendantın, iradəsindən asılı olurdu.

1831-ci ildə Dövlət Şurası Qafqaz administrasiyasının təqdimatı ilə «Keçmiş tatar distansiyaları, Yelizavetpol dairəsi, müsəlman əyalətləri və dağlı xalqların cinayət və günahları, məhkəmə və divan haqqında qaydaları» təsdiq etdi. "Qaydalar" nalayiq hərəkətlər, azəhəmiyyətli və ağır cinayətlərə sərhəd qoydu, bu kateqoriyaların hər birinə münasibətdə müxtəlif məhkəmə və divan qaydalarına təzədən baxdı. Nalayiq hərəkətlərə fırıldaq və 5 rubla qədər oğurluq, əyyaşlıq, özbaşnalıq, tabe olmamaq, ictimai qaydanı pozmaq və s. daxil edilmişdi. Nalayiq hərəkətlər edən şəxslər üzərində məhkəmə və divanı bəylər, ağalar və məliklər aparmalı idilər. Belə müqəssirlər dəymiş ziyanı ödəmək və «yüngül polis» cəzalarına məruz qalırdılar.

Qarət, oğurluq və 5 rubldan 700 rubla qədər fırıldaq gəlmək azəhəmiyyətli cinayətlər hesab edilirdi. Belə cinayətlər üzrə məhkəmə və tədqiqat distansiyaların baş pristavlarına, bu dərəcədən olan müxtəlif məmurlara və yerli vergi verən əhalidən seçilmiş iki nəfər məhkəmə üzvünə həvalə edilirdi. Belə məhkəmələrdə dindirmənin nəticəsinə görə mülki qubernatorun, yaxud hərbi dairə rəisinin təsdiqi ilə 100 çubuq zərbəsi və oğurlanmış şeylərin qaytarılması cəzası təyin oluna bilərdi. Əgər oğurlanmış əmlakın bir hissəsi qaytarılmazdısa, onda müqəssir onu pulla ödəməli idi. Müqəssir cəriməni ödəmək iqtidarında olmazdısa yaxınlarına müraciət edilirdi. Əgər onlar da bütün məbləği ödəyə bilməzdisə, onda cərimənin ödənilməsi cinayətkarın məxsus olduğu bütün kəndə, ilk növbədə ağalar, məliklər və digər kənd məmurlarına, «cinayətkarı gizlətməməyi, oğurluq və fırıldaq edənləri ciddi nəzarət altında saxlamağı» onlara təlqin etmək üçün müraciət edilməli idi.

Nəhayət ağır cinayətlərə üçüncü dəfə oğurluq və 5 rubldan 100 rubla qədər fırıldaq, həmçinin 100 rubldan yuxarı məbləğin fırıldaq yolu ilə oğurlanması, qarət, adam öldürmə və digər cinayətlər aid edilirdi. Müqəssirlər ağır cinayətlərə görə ümumi qanunlara əsaslanan məhkəmələrə verilirdi.

1831-ci ilin məhkəmə və divan haqqında qaydalarının 1840-cı ilə qədər qüvvədə qalması nəzərdə tutulsa da, bu müddət 6 ilə məhdudlaşmışdı.

Əyalət və şəhər məhkəmələri yalnız mülki və azəhəmiyyətli cinayət işlərinə baxırdı. Ağır cinayətlərin istintaqı hərbi məhkəmənin, yaxud hərbi-mühakimə komissiyasının mühakiməsinə verilirdi. Bir sıra sənədlərdə belə cinayətlərin siyahısı göstərilir. 1812-ci

ilin şəhər məhkəməsi haqqında qətnaməsində bunlara dövlətə xəyanət, adam öldürmə, quldurluq, dövlət əmlakının qaçırılması, rus pulunun xaricə daşınması, saxtakarlıq aid edilmişdir.

Bu işlər üzrə polisin köməkliyi ilə ilkin tədqiqat aparılır, tədqiqatın materialları qərarın çıxarılması və üç gün müddətində qala komendantına təhvil verilməsi şərti ilə hərbi məhkəməyə göndərilirdi. Komendant həmin qərarı öz rəyi ilə birlikdə baxılması və təsdiq edilməsi üçün Qafqaz baş idarəsinə təqdim etməli idi.

Yerlərdə çarizmin işğalçı və müstəmləkə siyasətinə qarşı baş verən çıxışlar amansızlıqla yatırılır, onun iştirakçıları rus məhkəmələrinin ciddi cəzalarına məruz qalırdılar (5, sənəd 1030).

Bəhs edilən dövrdə çarizmin Şimali Azərbaycanda həyata keçirdiyi hüquq-mühafizə tədbirləri heç də yerli əhalinin rifahı naminə deyil, müstəmləkəçilərin buradakı məqsədyönlü siyasətini realizə etmək üçün görülürdü.

Komendant üsul-idarəsi dövründə müstəmləkəçi Rusiya imperiyasının Qafqazda, o cümlədən də Şimali Azərbaycanda öz mənafelərinə xidmət göstərəcək hüquq-mühafizə sistemi yaratmaq istiqamətində yeritdiyi siyasət qeyri-sabit idi. Yerli adət-ənənələr, şəriət və müstəmləkəçi Rusiya qanunvericiliyinin birləşməsindən yaradılmış hüquqi baza son dərəcə naqis idi. Bu baza əsasında fəaliyyət göstərməyə çalışan hüquq-mühafizə orqanlarının işi çox da səmərəli deyildi. Bu orqanların təşkil edildiyi sistem ilk növbədə çarizmin qəsbkar maraqlarının xidmətində dururdu.

## *ƏDƏBIYYAT*

1.ARDTA: f. 130 (Cənubi Qafqazın Müsəlman əyaləti hərbi dairə rəisi), siyahı 1, iş 37.
2.Azərbaycan tarixi: 3 cilddə, II h., Bakı,1964.
3.Azərbaycan tarixi: 7 cilddə, IV h., Bakı, 2000.
4.АКАК. Под ред. А.Берже, т. II. Тифлис: (1802-1806), 1868.
5.АКАК. Под ред. А.Берже, т. IV. Тифлис: (1809-1811), 1870.
6.АКАК. Под ред. А.Берже, т. VI. ч. I. Тифлис: (1816-1827), 1874.
7.Иваненко В.Н. Гражданское управление Закавказьемь оть присоединения Грузии до наместничества великого князя Михаила Николаевича. Тифлис, 1901, 525 с.
8.Мильман А. Политический строй Азербайджана в XIX - начле XX вв. Баку, 1966.
9.Сумбатзаде А.С. Кубинское восстание 1837 г. Баку, 1961.

**ИЛЬХАМ ХАЛИЛОВ**

## ИЗ ИСТОРИЯ СОЗДАНИЕ НОВЫХ ПРАВООХРАНИТЕЛЬНЫХ ОРГАНОВ И ИХ ДЕЯТЕЛЬНОСТЬ ВО ВРЕМЯ КОМЕНДАНТСКОГО РЕЖИМА В СЕВЕРНОЙ АЗЕРБАЙДЖАНЕ

В статье под названием «Из история создание новых правоохранительных органов и их деятельность во время комендантского режима в Северной Азербайджане», автор широко исследовал деятельность правоохранительных органов - ролиции, суда и жандарма созданных после оккупация Царского империя Северной Азербайджана в первой половине XIX века и разоблачил их колониалный характер.

Tarix və onun problemləri, №1-2 2009

**ILRHAM KHALILOV**

**FROM THE HISTORI OF CREATING AND ACTIVITY OF NEW LAW DEFENCE ORGANS DURING COMMENDANT REGIME IN NORTH AZERBAIJAN**

In this article named "From the histori of creating and activity of new law defence organs during commendant regime in North Azerbaijan", author has obviously investigated the activity of law-defence organs – police, court and jandarm created by Tsar's reign after occupying North Azerbaijan in the I half of XIX century and exposed their colonial features.

***Rəyçilər: t.e.n.H.N.Həsənov, t.e.d.Q.Ə.Əliyev.***

***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu «Azərbaycanın yeni tarixi» şöbəsinin yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05)***